# Milli Məclisdə komitə iclasları keçirilib

Oktyabrın 4-də Milli Məclisin İnsan hüquqları komitəsinin 2024-cü ilin payız sessiyasında ilk iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, komitə sədri Zahid Oruc komitənin üzvlərini VII çağırış Milli Məclisə seçilmələri münasibətilə təbrik edib və onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

O diqqətə çatdırıb ki, iclasın gündəliyinə iki məsələ - İnsan hüquqları komitəsinin 2024-cü ilin payız sessiyası üçün iş planının layihəsi və "Uşaq hüquqları haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) daxil edilib.

Komitə sədri gündəliyin birinci məsələsi ilə bağlı bildirib ki, sənəddə qanunvericilik subyektlərindən daxil olacaq qanun layihələrinin müzakirəsi, o cümlədən müxtəlif qanun layihələrinə əlavə və dəyişikliklərin edilməsi nəzərdə tutulub. İş planında Ermənistanın azərbaycanlılara qarşı həyata keçirdiyi soyqırımı, etnik təmizləmə və deportasiya cinayətləri nəticəsində vətəndaşlarımızın pozulmuş insan hüquqlarının bərpası, rəqəmsal məkanda vətəndaşların hüquqlarının qorunması ilə bağlı, həmçinin ölkəmizdə 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi və COP29 qlobal iqlim sammitinin keçirilməsi aspektində və digər istiqamətlərdə insan hüquqlarının aktual məsələlərinə həsr olunmuş müvafiq müzakirələrin, dinləmələrin və digər tədbirlərin keçirilməsi əks olunub.

Gündəliyin ikinci məsələsi olan "Uşaq hüquqları haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) ilə bağlı komitə sədri qeyd edib ki, layihədə təklif olunan dəyişikliklər uşaq müəssisələrində xidmətlərin keyfiyyətinin yüksəldilməsinə, uşaq hüquqlarının həyata keçirilməsinin təkmilləşdirilməsinə xidmət edir.

Fikir mübadiləsi şəraitində keçən müzakirələrdə komitə sədri Zahid Oruc, komitə sədrinin müavini Arzuxan Əlizadə, Hikmət Məmmədov, Mübariz Qurbanlı, Sevil Mikayılova, Bəhruz Məhərrəmov, Səyyad Salahlı, Azər Allahverənov, Razi Nurullayev, Vüqar Rəhimzadə, Tural Gəncəliyev, Naqif Həmzəyev, Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyev çıxış edərək gündəlikdəki məsələlərlə bağlı fikirlərini bildiriblər, rəy və təkliflərini səsləndiriblər.

İclasda komitənin qarşıdakı sessiyası üçün iş planı təsdiqlənib, müzakirə olunan qanun layihəsi Milli Məclisin plenar iclasına tövsiyə olunub.

* * *

Oktyabrın 4-də Milli Məclisin Əmək və sosial siyasət komitəsinin 2024-cü ilin payız sessiyasında ilk iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, komitə sədri Musa Quliyev VII çağırış Milli Məclisə üzv seçilən deputatlara təbriklərini çatdırıb, onlara uğurlar arzulayıb. O qeyd edib ki, iclasın gündəliyinə Əmək və sosial siyasət komitəsinin 2024-cü ilin payız sessiyası üçün iş planı və 4 qanun layihəsi daxil edilib.

Musa Quliyev bildirib ki, komitənin qarşıdakı sessiya üçün iş planında qanunvericilik təşəbbüsü qaydasında komitəyə daxil olacaq qanun layihələrinin, büdcə zərfinə daxil olan sənədlərin, həmçinin qanunlara təklif olunan dəyişikliklərin müzakirəsi nəzərdə tutulub. Bununla yanaşı, sessiya ərzində "Əhalinin məşğulluğunun artırılması sahəsində qanunvericiliyin təkmilləşdirilməsi" mövzusunda ictimai dinləmənin keçirilməsi də planlaşdırılır.

İş planı təsdiqləndikdən sonra Milli Məclis Apatarının Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyev gündəliyin 2-ci məsələsi olan "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi haqqında məlumat verib. Bildirib ki, "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun 8-ci maddəsinə əsasən, sözügedən kateqoriyadan olan uşaqlar, habelə onların arasından olan şəxslər ilk dəfə işə düzələn zaman orta aylıq əməkhaqqının beş mislindən az olmayan miqdarda birdəfəlik müavinətlə (5017,5 manat), habelə müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş normalara uyğun paltar, ayaqqabı, yumşaq ləvazimat, avadanlıq və ya öz arzularına əsasən onların əvəzinə verilən pul kompensasiyası ilə (265 manat) təmin olunurlar.




Daha effektiv sosial təminat prinsipinin tətbiq edilməsi və digər qanunvericilik aktlarına uyğunlaşdırılması məqsədilə paltar, ayaqqabı, yumşaq inventar və avadanlıqların və ya onların əvəzinə verilən pul kompensasiyasının məbləğinin də sözügedən müavinətin tərkibinə daxil edilməklə birdəfəlik müavinətin hazırda ölkə üzrə orta aylıq nominal əməkhaqqının məbləği nəzərə alınmaqla 6000 manat müəyyən edilməsi təklif olunur.

Sonra Adil Vəliyev gündəliyin 3-cü məsələsi olan "Turizm haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" qanun layihəsi barədə məlumat verib. Bildirib ki, dəyişikliyə əsasən, turizm və rekreasiya zonalarının ərazisində bəzi fəaliyyət növlərinin həyata keçirilməsinin qadağan edilməsi nəzərdə tutulur.

Gündəliyin qalan 2 məsələsinin uyğunlaşdırma və terminoloji xarakterli dəyişikliklərlə bağlı olduğu diqqətə çatdırılıb. Bildirilib ki, "Arbitraj haqqında" Azərbaycan Respublikasının 2023-cü il 26 dekabr tarixli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsi və Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Sosial sığorta haqqında" və "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsində təklif olunan dəyişikliklər qanunvericiliyin daha da təkmilləşdirilməsinə xidmət edir.

Gündəlikdəki məsələlər barədə çıxış edən komitə sədrinin müavini Elşad Musayev, deputatlar Vüqar Bayramov, Jalə Əliyeva, Soltan Məmmədov, Əziz Ələkbərov, Göydəniz Qəhrəmanov, Nigar Məmmədova, Səttar Möhbalıyev, Sevinc Hüseynova qanun layihələri barədə qeyd və təkliflərini bildiriblər.

İclasda iştirak edən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin şöbə müdiri Babək Hüseynov, Dövlət Turizm Agentliyinin şöbə müdiri Elgün Cavadov deputatların qaldırdıqları məsələlərə aydınlıq gətiriblər, onların suallarını cavablandırıblar.

Komitənin 2024-cü ilin payız sessiyası üçün iş planı təsdiqlənib, gündəlikdəki qanun layihələri isə Milli Məclisin plenar iclasına tövsiyə olunub.

*Ardı 7-ci səh.*

# Milli Məclisdə komitə iclasları keçirilib

*Əvvəli 6-cı səh.*

Oktyabrın 4-də Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin genişləndirilmiş iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, komitənin sədri Əli Hüseynli gündəliyə 3 məsələnin - "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında", "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında", "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqında" qanun layihələrinin birinci oxunuşda daxil edildiyini söyləyib.

Əli Hüseynli birinci məsələnin "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" qanun layihəsi olduğunu və sənədin müzakirəsində ekspertlərin iştirak etdiyini bildirib.

Komitənin üzvü Kamal Cəfərov qanun layihəsini təqdim edib. Diqqətə çatdırıb ki, qanun layihəsi tullantıların insan sağlamlığına və ətraf mühitə zərərli təsirinin qarşısının alınması, onların təhlükəli təsirinin azaldılması, təbiətdə ekoloji tarazlığın təmin olunması məqsədilə, tullantıların idarə olunması sahəsində Azərbaycan Respublikasının qanunvericiliyinin pozulmasına görə inzibati məsuliyyətin artırılmasını nəzərdə tutur.

Layihədə tütün məmulatının istehlakına dair məhdudiyyətlərə riayət edilməməsinə görə, habelə həmin məmulatların tullantılarının ətraf mühitə təkrar atılmasına görə tətbiq edilən sanksiyalarda müəyyən dəyişikliklər edilir. Sənəddə həmçinin məişət tullantılarının idarə olunmasına dair tələblərin pozulmasına görə həm yeni sanksiyalar, eyni zamanda əməlin təkrar törədilməsinə görə və məişət tullantılarının buna cavabdeh şəxslər tərəfindən vaxtında xüsusi ayrılmış ərazilərə daşınmamasına görə yeni inzibati tənbehlərin müəyyən edilməsi də təklif olunur.

Dəyişikliklərdə piyadalar və yol hərəkətinin başqa iştirakçıları, nəqliyyat vasitələrinin sürücüləri tərəfindən yol hərəkəti qaydalarının pozulmasını nəzərdə tutan müvafiq maddələrdən "bayıra hər hansı əşya və tullantıların atılması" sözlərinin çıxarılmasında məqsəd isə bu xətaları ümumiləşdirərək məcəlləyə yeni 352.2-ci maddənin əlavə edilməsidir. Həmçinin dəniz və çay nəqliyyatı gəmilərindən, dəmir yolu nəqliyyatı vasitələrindən tullantıların atılmasına görə də inzibati tənbehlər təklif edilir.

İclasda parlamentin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov və Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov çıxış edərək məsələnin aktuallığına diqqət çəkdilər. Çıxışlarda tibbi və məişət tullantılarının insan sağlamlığına və ətraf mühitə mənfi təsirindən, bununla bağlı baş verən pozuntular, onların qarşısının alınması üçün əməli tədbirlərin vacibliyindən bəhs edilib. Tullantıların idarə olunması sahəsində atılan addımlar, bu istiqamətdə maarifləndirmənin əhəmiyyəti barədə fikirlər açıqlanıb.

Müzakirələrin sonunda qanun layihəsi birinci oxunuşda Milli Məclisin plenar iclasına tövsiyə olunub.

İclasda komitə üzvü Nizami Səfərov növbəti məsələ - "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında" qanun layihəsi barədə məlumat verib. Qeyd olunub ki, Azərbaycan Prezidenti tərəfindən qanunvericilik təşəbbüsü qaydasında təqdim edilmiş layihədə "Ekosid" anlayışının əlavə edilməsi və bu cinayəti törədən şəxslərin qanun çərçivəsində məsuliyyətə cəlb olunması təklif edilir. Dəyişiklik ölkə ərazisində törədilən ekoloji cinayətlərə görə düzgün hüquqi qiymətləndirmənin aparılmasını və ekosistemin davamlı mühafizəsi üçün qanunvericilik bazasının təkmilləşdirilməsini təmin etmək məqsədi daşıyır.

Sonra komitə üzvü Kamal Cəfərov "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqında" qanun layihəsini təqdim edib. Bildirilib ki, layihənin məqsədi heyvanlar aləmi və yaşıllıqların mühafizəsi haqqında qanunvericiliyin təkmilləşdirilməsindən ibarətdir. Belə ki, qanunsuz olaraq ağacları, kolları və ya digər yaşıllıqları kəsməyə (götürməyə) görə Cinayət Məcəlləsində ilk dəfə "xüsusilə külli miqdar" anlayışı müəyyən edilir ki, bu da məcəllənin 259.1-259.3-cü maddələrində nəzərdə tutulmuş əməllərin törədilməsi nəticəsində müvafiq məbləğdə ziyanı nəzərdə tutur.

İnzibati Xətalar Məcəlləsinə təklif edilən dəyişikliklərə əsasən, ətraf mühitin mühafizəsi, təbiətdən istifadə və ekoloji təhlükəsizlik qaydaları əleyhinə olan inzibati xətaları müəyyən edən müddəalar təkmilləşdirilir. Heyvanlar aləmi haqqında qanunvericiliyin pozulmasına görə məsuliyyətlə bağlı məcəllənin 274-cü maddəsi yeni redaksiyada təklif edilir, habelə məcəlləyə heyvanlarla rəhmsiz rəftarın təbliğ edilməsi və ya kommersiya məqsədləri üçün istifadə edilməsi ilə bağlı yeni 274-1-ci maddənin əlavə edilməsi də təklif edilir.

Hər iki qanun layihəsi birinci oxunuşda Milli Məclisin iclasına tövsiyə olunub.

* * *

Oktyabrın 4-də VII çağırış Milli Məclisin Regional məsələlər komitəsinin 2024-cü il payız sessiyasında ilk iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, komitənin sədri Siyavuş Novruzov növbədənkənar seçkilərdə deputat mandatı qazanmış komitə üzvlərini yeni sessiyanın başlaması münasibətilə təbrik edib, onlara gələcək fəaliyyətlərində müvəffəqiyyətlər arzulayıb.

Komitə sədri Müzəffər Ali Baş Komandan İlham Əliyevin başçılığı ilə torpaqlarımızın işğaldan azad edilməsinin növbəti ildönümü olduğunu, hazırda ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpa olunduğunu vurğulayıb. İclasda torpaqlarımızın işğaldan azad edilməsini arzulayan və bunu vəsiyyət edən Ulu Öndər Heydər Əliyevin, Azərbaycanın ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş şəhidlərimizin xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Siyavuş Novruzov iclasın gündəliyində iki məsələnin - Regional məsələlər komitəsinin 2024-cü ilin payız sessiyası üçün iş planı layihəsinin, "Bələdiyyələrin statusu haqqında" və "Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsinin (ikinci oxunuş) olduğunu söyləyib.

Komitə sədri əvvəlcə Regional məsələlər komitəsinin 2024-cü ilin payız sessiyası üçün iş planının layihəsini təqdim edib. Bildirib ki, sessiya çərçivəsində qanunvericilik təşəbbüsü qaydasında təqdim edilən qanun layihələrinin müzakirəsi, komitənin fəaliyyət sahəsinə aid müxtəlif mövzularda dinləmələrin keçirilməsi, aidiyyəti qurumlardan daxil olan təkliflərin təhlili, vətəndaşların müraciətlərinə baxılması nəzərdə tutulur.

Sonra Siyavuş Novruzov "Bələdiyyələrin statusu haqqında" və "Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə (ikinci oxunuş) qanun layihəsi ilə bağlı məlumat verib. Diqqətə çatdırıb ki, layihə qanunvericilik təşəbbüsü qaydasında Azərbaycan Prezidenti tərəfindən təqdim edilib. Sənəddə təklif olunan dəyişiklikləri şərti olaraq iki qrupda birləşdirmək olar. Bir qrup dəyişikliklər bələdiyyələrin fəaliyyəti sahəsində yaranan münasibətlərin tənzimlənməsi üçün hüquqi əsasların yaradılması, ikinci qrup dəyişikliklər isə yuxarıda göstərilən qanunlarda bəzi maddələrin qanunvericiliyin tələblərinə uyğun təkmilləşdirilməsi, normaların daha aydın və birmənalı ifadə edilməsi, icra müddətlərinin dəyişdirilməsi məqsədilə hazırlanıb. Qeyd olunub



ki, layihədə ümumilikdə 37 maddəyə dəyişikliklər təklif olunur. Bu dəyişikliklər bələdiyyələrin daha səmərəli fəaliyyət göstərmələrinə, vətəndaşlara göstərdikləri xidmət səviyyəsinin daha keyfiyyətli olmasına şərait yaradır.

Müzakirələr zamanı çıxış edən komitə üzvləri Aydın Mirzəzadə, Elşən Musayev, Elman Məmmədov, Tahir Rzayev, Məzahir Əfəndiyev, Arzuxan Əli-zadə komitənin payız sessiyası üçün iş planını məqbul hesab ediblər, qanun layihəsindəki dəyişikliklərin məqsədəmüvafiq olduğunu söyləyiblər. Deputatlar bələdiyyələrin fəaliyyətinin yaxşılaşdırılması istiqamətində ölkədə görülən işləri, o cümlədən bu sahədə qanunvericilik bazasının təkmilləşdirilməsini yüksək qiymətləndiriblər. Millət vəkilləri öz çıxışlarında bir sıra qeyd və təkliflərini də səsləndiriblər.

Müzakirələrin sonunda komitənin 2024-cü ilin payız sessiyası üçün iş planının layihəsi təsdiq edilib, qanun layihəsi ikinci oxunuşda Milli Məclisin plenar iclasına tövsiyə olunub.

* * *

Oktyabrın 4-də Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin 2024-cü ilin payız sessiyasında ilk iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, iclası açan komitənin sədri Sadiq Qurbanov komitə üzvlərini cari il sentyabrın 1-də, Azərbaycanın bütün suveren ərazisində şəffaf və demokratik şəraitdə baş tutmuş növbədənkənar parlament seçkilərində qalib gəlmələri münasibətilə təbrik edib və onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

Komitə sədri əvvəlcə Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin 2024-cü ilin payız sessiyası üçün iş planının layihəsini müzakirəyə təqdim edib. O, diqqətə çatdırıb ki, iş planına qanunvericilik təşəbbüsü qaydasında daxil olan qanun layihələrinin, mövcud qanunlara ediləcək dəyişikliklərin müzakirəsi daxil edilib. Bundan başqa, sessiya ərzində rəqəmsallaşmanın ətraf mühitə təsiri və ekologiyanın digər aktual məsələləri ilə bağlı dinləmələrin, müzakirələrin və müvafiq tədbirlərin keçirilməsi nəzərdə tutulub.

Sonra iclasda gündəliyə daxil olan "Balıqçılıq haqqında", "Heyvanlar aləmi haqqında", "Ətraf mühitin mühafizəsi haqqında" və "Ovçuluq haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi nəzərdən keçirilib. Komitə sədri qanun layihəsində balıqçılıq və ovçuluq fəaliyyətlərinin tənzimlənməsi, heyvanlar aləminin mühafizəsi və ətraf mühitin qorunması ilə bağlı təklif olunan təkmilləşdirmələrdən danışıb.

Gündəliyin üçüncü məsələsi olan Cinayət Məcəlləsində və İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (birinci oxunuş) ilə bağlı bildirilib ki, sənəd hüquqi sistemin müasirləşdirilməsi və cəmiyyətin təhlükəsizliyinin artırılması baxımından mühüm əhəmiyyət daşıyır. Dəyişikliklər arasında, ekoloji cinayətlərə və inzibati xətalara cəzaların tətbiqi, eləcə də müvafiq məsuliyyətlərin artırılmasının ekoloji mühitin mühafizəsinə və təbii ehtiyatların istifadəsinə müsbət təsir edəcəyi vurğulanıb.

Sonra "Heyvanlar aləmi haqqında", "Ətraf mühitin mühafizəsi haqqında" və "Yaşıllıqların mühafizəsi haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsinə baxılıb. Bu qanun layihəsində heyvanların mühafizəsi, ekosistemlərin qorunması və yaşıllıqların saxlanılması ilə bağlı müasir tələblər təsbit olunub.

İclasda son olaraq "Azərbaycan Respublikası Hökuməti ilə birgə Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişimləri üzrə Çərçivə Konvensiyasının Kioto Protokolunun və Paris Sazişinin Katibliyi arasında Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Görüşünün on doqquzuncu sessiyası, Paris Sazişinin Tərəflər Görüşünün altıncı sessiyası və Köməkçi Orqanların sessiyaları haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi nəzərdən keçirilib.

Məsələlərin müzakirəsində komitə sədrinin müavini Fatma Yıldırım, komitə üzvləri Rövşən Muradov, Naqif Həmzəyev, Asif Əsgərov, Milli Məclis Aparatının İqtisadi qanunvericilik şöbəsinin müdiri Məhəmməd Bazıqov, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Hüquq və insan resursları şöbəsinin müdiri Aynurə Kərimova, Dövlət Ekoloji Ekspertiza Agentliyinin İdarə Heyətinin sədri Mirqasım Qənbərov təqdim olunan qanun layihələri barədə fikirlərini və qeydlərini bildiriblər.

Deputatlar komitənin 2024-cü il payız sessiyası üçün iş planını təsdiqləyiblər, qanun layihələrini Milli Məclisin plenar iclasına tövsiyə ediblər.

İclasda deputatlar Vüqar Rəhimzadə, Bədəl Bədəlov və Eyvaz Qurbanov, Dövlət Ekoloji Təhlükəsizlik Xidmətinin şöbə müdiri Sadiq Dərafərin və digər rəsmi şəxslər iştirak ediblər.

* * *

Oktyabrın 4-də VII çağırış Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin cari ilin payız sessiyasında ilk iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, əvvəlcə komitə sədri Azər Əmiraslanov komitə üzvlərini VII çağırış Milli Məclisə seçilmələri münasibətilə təbrik edib və onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

Sonra gündəliyin birinci məsələsini - İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin 2024-cü ilin payız sessiyası üçün iş planını müzakirəyə təqdim edən komitə sədri bildirib ki, sənəddə qarşıdakı sessiyada büdcə zərfi və komitəyə daxil olacaq digər qanun layihələrinin müzakirəsi nəzərdə tutulub. Eyni zamanda komitənin profilinə aid məsələlərlə bağlı ictimai dinləmələrin, müzakirələrin və digər tədbirlərin keçirilməsi planlaşdırılıb.

İkinci məsələ olan "Qrant haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) təqdim olunarkən bildirilib ki, sənəd bələdiyyələrin maliyyə resurslarına çıxışının artırılması məqsədilə onlara qrant verilməsinin hüquqi əsaslarının yaradılması və tənzimlənməsi məqsədilə hazırlanıb. Növbəti məsələ olan Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi texniki xarakterlidir. Layihə elektrik mühərriki ilə işləyən avtomobillər üçün ikinci və üçüncü səviyyə elektrik enerji doldurucularının idxalı və satışının ƏDV-dən azadolma müddətinin 2025-ci il yanvarın 1-dək daha iki il uzadılmasını nəzərdə tutur. "Daşınar əmlakın yüklülüyü haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) də texniki xarakterlidir. Belə ki, sənəddə daşınar əmlakın yüklülüyünün dövlət reyestrinin aparılması zamanı reyestrə daxil edilən bildirişdə göstərilən məlumatların dairəsinə daşınar əmlakın seriya nömrəsinin də əlavə edilməsinin hüquqi əsasları yaradılır.

Gündəliyin beşinci məsələsi olan Vergi Məcəlləsində, "Sosial sığorta haqqında" və "Tibbi sığorta haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi barədə İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin idarə rəisi Elnur Yusifov məlumat verib. Qanunvericilikdə yükdaşımalar üzrə fəaliyyətin "Fərqlənmə nişanı" almaqla sabit qaydada sadələşdirilmiş verginin ödənilməsi rejimindən çıxarıldığından təqdim edilmiş layihədə uyğunlaşma çərçivəsində bir sıra maddələrdə dəyişikliklər təklif olunub. Müvafiq olaraq "Sosial sığorta haqqında" və "Tibbi sığorta haqqında" qanunlara da uyğunlaşma çərçivəsində dəyişikliklər təklif olunub.

Gündəliyin növbəti üç məsələsi "Azərbaycan Respublikası Hökuməti ilə Pakistan İslam Respublikası Hökuməti arasında Preferensial Ticarət Sazişi"nin təsdiq edilməsi haqqında, "Azərbaycan Respublikası Hökuməti ilə Pakistan İslam Respublikası Hökuməti arasında Tranzit Ticarət Sazişi"nin təsdiq edilməsi haqqında və "Azərbaycan Respublikası Hökuməti ilə Pakistan İslam Respublikası Hökuməti arasında hava əlaqəsi haqqında Sazişi"nin təsdiq edilməsi haqqında qanun layihələri barədə komitə sədri Azər Əmiraslanov məlumat verib. Komitə sədri bildirib ki, hər üç saziş 11 iyul 2024-cü ildə Pakistanın İslamabad şəhərində imzalanıb və ölkələrimiz arasında mövcud olan siyasi, hərbi, diplomatik əməkdaşlığın iqtisadi məzmunla möhkəmləndirilməsinə xidmət edir.

Beynəlxalq sazişlə bağlı növbəti məsələ - "Avropa Yenidənqurma və İnkişaf Bankının təsis edilməsi haqqında" Sazişdə dəyişikliklərin təsdiq edilməsi barədə qanun layihəsi Avropa Yenidənqurma və İnkişaf Bankının maliyyə dayanıqlılığının möhkəmləndirilməsinə xidmət edir.

Gündəliyin 10-cu məsələsi olan "Siyasi partiyalar haqqında" Azərbaycan Respublikasının 2022-ci il 16 dekabr tarixli 693-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə qanunun layihəsi "Siyasi partiyalar haqqında" qanunda aparılmış dəyişikliklərin müvafiq normativ-hüquqi aktlarda təsbit olunması məqsədilə hazırlanıb.

Miqrasiya Məcəlləsində və "Dövlət rüsumu haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) barədə də komitə sədri məlumat verib. Bildirilib ki, layihədə təklif edilən dəyişikliklər miqrasiya proseslərinin və bu sahədə yaranan münasibətlərin tənzimlənməsi zamanı elektron xidmətlərin daha çevik şəkildə həyata keçirilməsini ehtiva edir.

Növbəti məsələ ilə bağlı məlumat verilərkən diqqətə çatdırılıb ki, "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında", "Kitabxana işi haqqında", "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" və "Poçt haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi spesifik xarakter daşıyır. Belə ki, sənəd əlilliyi olan şəxslərə qarşı alçaldıcı və təhqiramiz söz və ifadələrin mənfi təsəvvürlər yaratmayan söz və ifadələr ilə əvəz olunması məqsədilə hazırlanıb.

Gündəliyin 13-cü məsələsi olan "Turizm haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) turizm və rekreasiya zonalarının ərazisində bəzi fəaliyyət növlərinin həyata keçirilməsinin (kimya sənayesi, metallurgiya, nüvə energetikası, tullantıların zərərsizləşdirilməsi və emalı müəssisələrinin fəaliyyəti) qadağan edilməsi ilə əlaqədardır.

Komitənin müzakirəsinə təqdim olunan "Arbitraj haqqında" Azərbaycan Respublikasının 2023-cü il 26 dekabr tarixli 1077-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) isə yeni yaradılmış arbitraj sisteminin institusional baxımdan gücləndirilməsinə xidmət edir.

Gündəliyin sonuncu məsələsi olan Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi ilə bağlı məlumat verilərkən bildirilib ki, dəyişiklik uyğunlaşdırma xarakteri daşıyır.

Gündəlikdəki məsələlərin müzakirəsində komitə üzvləri Əli Məsimli, Ziyad Səmədzadə, Aydın Hüseynov, Heydər Əsədov, Müşfiq Cəfərov çıxış edib, sənədlərlə bağlı fikirlərini bildirib, rəy və təkliflərini səsləndiriblər.

Deputatlar komitənin 2024-cü ilin payız sessiyası üçün iş planını təsdiqləyib və müzakirəyə çıxarılan qanun layihələrini Milli Məclisin plenar iclasına tövsiyə ediblər.

* * *

Oktyabrın 4-də Milli Məclisin Elm və təhsil komitəsinin 2024-cü ilin payız sessiyasında ilk iclası keçirilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, iclası açan komitə sədri Anar İsgəndərov yeddinci çağırış Milli Məclisə üzv seçilmələri münasibətilə deputatlara təbriklərini çatdırıb, onlara uğurlar arzulayıb. Komitə sədri qeyd edib ki, iclasın gündəliyinə Elm və təhsil komitəsinin 2024-cü ilin payız sessiyası üçün iş planı və 1 qanun layihəsi daxil edilib.

Anar İsgəndərov bildirib ki, qarşıdakı sessiya üçün iş planında qanunvericilik təşəbbüsü qaydasında komitəyə daxil olacaq qanun layihələrinin, həmçinin qanunlara təklif olunan dəyişikliklərin müzakirəsi öz əksini tapıb. Bundan başqa, komitə üzvlərinin Qarabağ Universiteti ilə tanışlığı və ustad mühazirələrin oxunması da nəzərdə tutulur.

İş planı təsdiqləndikdən sonra Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyev gündəliyin 2-ci məsələsi olan "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında", "Kitabxana işi haqqında", "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" və "Poçt haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsi haqqında məlumat verib.

O bildirib ki, bu dəyişikliklər uyğunlaşdırma xarakteri daşıyır və əlilliyi olan şəxslərə qarşı mənfi təsəvvürlər yaradan ifadələrin mənfi təsəvvürlər yaratmayan ifadələrlə əvəz olunmasını özündə ehtiva edir.

İclasda çıxış edən komitə sədrinin müavini Fariz İsmayılzadə, Elnarə Akimova, Bəxtiyar Əliyev, Əziz Ələkbərov, Pərvin Kərimzadə, Vasif Qafarov, Eldar Quliyev, Elçin Mirzəbəyli, Şahin Seyidzadə, Mehriban Vəliyeva, Fatma Yıldırım gündəlikdəki məsələlər barədə fikirlərini bildirib, qeyd və təkliflərini diqqətə çatdırıblar.

İclasın sonunda Elm və təhsil komitəsinin 2024-cü ilin payız sessiyası üçün iş planı təsdiqlənib, gündəlikdəki qanun layihəsi isə Milli Məclisin plenar iclasına tövsiyə olunub.

* * *

Oktyabrın 4-də Milli Məclisin Mədəniyyət komitəsinin 2024-cü ilin payız sessiyasında ilk iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, iclası açan komitə sədrinin müavini Günay Əfəndiyeva deputatları cari il sentyabrın 1-də Azərbaycanın bütün suveren ərazisində baş tutmuş növbədənkənar parlament seçkilərində qalib gəlmələri münasibətilə təbrik edib və onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

Komitə sədrinin müavini diqqətə çatdırıb ki, iclasın gündəliyinə 3 məsələ daxil edilib.

Əvvəlcə gündəliyin birinci məsələsi - Mədəniyyət komitəsinin 2024-cü ilin payız sessiyası üçün iş planının layihəsi təqdim olunub. Günay Əfəndiyeva diqqətə çatdırıb ki, sənəddə qanunvericilik təşəbbüsü qaydasında daxil olan qanun layihələrinin, mövcud qanunlara ediləcək dəyişikliklərin müzakirəsi nəzərdə tutulub.

Sonra gündəlikdəki qanun layihələrini təqdim edən Günay Əfəndiyeva qanun layihələrinin ölkə Prezidenti tərəfindən qanunvericilik təşəbbüsü qaydasında Milli Məclisə daxil olduğunu diqqətə çatdırıb.

İclasın gündəliyində ikinci məsələ olan - "Turizm haqqında" Azərbaycan Respublikasının qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanunu layihəsinin (birinci oxunuş) daxil edildiyini deyən komitə sədrinin müavini təklif olunan dəyişikliklər barədə məlumat verib. Qeyd edilib ki, dəyişikliklər ölkəmizdə turizm sahəsində aparılan məqsədyönlü siyasətin tərkib hissəsi olmaqla yanaşı, bu sahədə qanunvericiliyin təkmilləşdirilməsi üçün zəmin yaradacaq.

Gündəliyin üçüncü məsələsi ilə bağlı danışan komitə sədrinin müavini bildirib ki, "Müəllif hüququ və əlaqəli hüquqlar haqqında", "Kitabxana işi haqqında", "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" və "Poçt haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsində nəzərdə tutulmuş əlavə və dəyişikliklər ölkəmizdə sağlamlıq imkanları məhdud şəxslərin hüquqlarının müdafiəsi sahəsində aparılan dövlət siyasətinin hüquqi əsaslarının daha da möhkəmləndirilməsinə xidmət edəcək.

Qanun layihələrinin müzakirəsi zamanı çıxış edən Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyev qanun layihələri barədə ətraflı məlumat verib. O bildirib ki, "Turizm haqqında" qanuna təklif olunan dəyişikliklər bu sahədə mövcud olan bir sıra mühüm məsələlərin həllini nəzərdə tutur. Gündəliyin üçüncü məsələsi haqqında danışan şöbə müdiri qeyd edib ki, layihə əlilliyi olan şəxslərə qarşı alçaldıcı və təhqiramiz söz və ifadələrin mənfi təsəvvürlər yaratmayan söz və ifadələrlə əvəz olunmasını nəzərdə tutur.

Fikir mübadiləsi şəraitində keçən müzakirələrdə komitə sədrinin müavini Günay Əfəndiyeva, komitə üzvləri Sahib Alıyev, Əlibala Məhərrəmzadə, Tənzilə Rüstəmxanlı, Novruzəli Aslanov, Ülviyyə Həmzəyeva, Elnarə Akimova çıxış edərək gündəlikdəki məsələlərlə bağlı fikirlərini bildirib, rəy və təkliflərini səsləndiriblər. Deputatlar qanunlara təklif olunan əlavə və dəyişikliklərin müvafiq sahələrdə qanunvericilik bazasının möhkəmləndirilməsinə xidmət edəcəyinə əminlik ifadə ediblər.

İclasın sonunda komitənin 2024-cü ilin payız sessiyası üçün iş planı təsdiq edilib, müzakirəyə çıxarılan qanun layihələri Milli Məclisin plenar iclasına tövsiyə olunub.

Azərbaycan. - 2024.- 5 oktyabr (№ 218).- S.6-7.